Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Böyük Müəllim, İsa



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: E. Frischbutter; Sarah S.

Tərcümə edən: Günay Əsədova

Alastair Paterson

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



İsa böyük,
ən yaxşı Müəllim idi.
İzdiham Onu dinləyirdi. İsa onlara mərhəmətli, yaxşı və xeyirxah olmağı öyrədirdi.



Digərləri onlara zərər vura və incidə bilərlər, lakin Allah onların qayğısına qalacaq.

İsa çox şeylər öyrətdi.



O dedi ki, şam evi işıqlandırdığı kimi, Allahın xalqı da dünyanı işıqlandırır. Şam qaranlıq otaqda böyük fərq etdiyi kimi!

İsanın söhbət etdiyi adamlar qisasa inanırdılar: “Gözə göz, dişə diş”. Lakin İsa hətta düşmənlərə qarşı mehriban olmağı, bağışlamağı və sevməyi öyrədirdi.



İsanın günlərində bəzi insanlar özlərini çox müqəddəs göstərirdilər.




Onlar dilənçiyə pul verəndə hamının bunu görməsi üçün şeypur səsi ilə car çəkirdilər. İsa dedi: “Gizlində ver və Allah səni mükafatlandıracaq”.

İsa eyni şeyi dua haqqında da öyrətdi. Bəziləri çox adam olan küçə tinlərində dua edirdilər ki, hamı onları görsün və eşitsin.



Onlar Allahı düşünmürdülər.
Onlar yalnız insanların onlar haqqında nə düşündüklərini fikirləşirdilər.
İsa onları ikiüzlü, yalançı aktyorlar adlandırırdı.



İsa Öz təlimlərini izah etmək üçün tez-tez təbiətdən istifadə edirdi.  Misal üçün, O, quşları misal çəkirdi.



O deyirdi: “Səmavi Ata onları yedizdirir”.  “Qayğı çəkməyin. Allah sizi də yedizdirəcək”.



İsa davam etdi: “Hətta padşah Süleyman belə, çöl zanbaqları kimi geyinməmişdi”. “Əgər Allah çöldəki otları geyindirirsə, O, sizi də geyindirməyəcəkmi?”



İsa bizim bütün ehtiyaclarımızı təmin edən Allaha etibar etməyi insanlara öyrədirdi.



İsa dedi: “Əgər sən qardaşını mühakimə edirsənsə, bu, öz gözündə tir olduğu halda, onun gözündən çöpü çıxartmağa çalışmağa bənzəyir”.



İnsanlar yəqin ki,
Ona altdan-altdan
gülürdülər.
Amma onlar
Onun nə
demək
istədiyi
haqda
düşünməli
idilər.





İsa dedi ki, insanlar Allahdan kömək diləməlidirlər. Cismani atalar övladları ac olanda onlara çörək əvəzinə daş parçası verirmi? Xeyr! Onlara yaxşı şeylər verir. Allah da Ondan diləyənlərə yaxşı şeylər verir.

Böyük Müəllim olan İsa yalançı müəllimlər haqqında xəbərdarlıq etdi. İsa dedi: “Onlar qoyun cildinə girirlər. Lakin onlar daxildə canavardırlar!”



O dedi ki, yalançı
müəllimlər yaşadıqları
həyatla tanınacaqlar.





Danışdığı hekayədə İsa göstərdi ki, Allahın Sözünə itaət edən insanlar evini qaya üzərində tikən adama bənzəyirlər. Dəhşətli fırtına qalxdı. Fırtına

bitəndə, ev möhkəm durdu.

Ağılsız adam isə evini qum üzərində tikdi. Fırtına onun üzərinə gələndə o ev dağıldı, çünki təməli zəif idi. İsa dedi ki, Allahın Sözünə itaət etməyən adamlar o adam kimidirlər.



İzdiham İsanın sözlərinə valeh olurdu.  Onlar heç vaxt belə şeylər eşitməmişdilər.



İndi onlar bilirdilər ki, Allahın Sözünü yalnız dinləmək kifayət deyil.  Onlar, həmçinin, hər gün ona itaət də etməlidirlər.



# Böyük Müəllim, İsa

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Matta 5-7, Luka 6

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**